# Azərbaycan Respublikasının Namizədlərin Məlumatlarının Məxfiliyi Bəyanatı

## P&G Namizədlər üçün Qlobal Məxfilik Bildirişinə

## Əlavə

Bu Əlavə (bundan sonra "**Əlavə**") P&G Namizədlər üçün Qlobal Məxfilik Bildirişinə (bundan sonra "**Bildiriş**") (Bildirişə keçid etmək üçün https://privacypolicy.pg.com/employee/candidate/) əlavədir və 2024-cü ilin aprel ayının 1 etibarən qüvvədədir.Siz fərdi məlumatlarınızı Bildirişdə və bu Əlavədə qeyd olunan məqsədlər üçün yazılı şəkildə təqdim etməklə həmin fərdi məlumatlarınızın "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının 998-IIIQ saylı Qanununa (bundan sonra "**Qanun**") uyğun olaraq Procter & Gamble Şirkəti, onun filial və törəmə şirkətləri tərəfindən (bundan sonra "**P&G**" və ya "**Operator**") toplanmasına, işlənilməsinə, saxlanılmasına, verilməsinə və transsərhəd ötürülməsinə razılıq (bundan sonra "**Razılıq**") verirsiniz.

1. *<u>Fərdi məlumatların toplanılması və işlənilməsi məqsədləri</u>*

Fərdi məlumatlarınız P&G tərəfindən namizədlərin işəqəbulu üçün aparılan qiymətləndirmənin müxtəlif mərhələlərində Operator tərəfindən aşağıdakı məqsədlər (bundan sonra "**Məqsəd**") üçün toplanıla və işlənilə bilər:

- Sizi P&G-də mövcud olan karyera imkanları barədə məlumatlandırmaq;
- Sizin bacarıqlarınızı və maraqlarınızı P&G-də karyera imkanları məqsədilə qiymətləndirmək;
- P&G-nin işəqəbul internet səhifəsi vasitəsilə Sizə rəqəmsal xidmətlər təqdim etmək;
- İşəqəbul zamanı qiymətləndirməni aparmaq məqsədi ilə Sizinlə əlaqə saxlamaq;
- İşəqəbul üçün ərizə formalarını rəqəmsal formada imzalamaq və təqdim etmək üçün imkan yaratmaq;
- Onlayn müsahibələrin keçirilməsini təşkil etmək;
- Müxtəliflilik prinsipinə əməl edərək namizədlərin müvafiq qiymətləndirməsini həyata keçirmək;
- Müraciət etdiyiniz vakansiyanın xüsusi tələblərinə uyğunluğunuzu qiymətləndirmək və s.

Bu barədə daha ətraflı məlumat üçün Bildirişin 2.1-ci maddəsini nəzərdən keçirə bilərsiniz.

2. *<u>İşlənilməsinə razılıq verilmiş fərdi məlumatların işlənilmə əməliyyatlarının siyahısı barədə məlumat</u>*

Siz işlənilməsinə razılıq verdiyiniz fərdi məlumatlara dair onların işlənilmə əməliyyatları barədə Bildirişin 2.1 və 2.4-ci maddələri vasitəsi ilə tanış ola bilərsiniz.

3. *<u>Sizin hüquqlarınız</u>*

Bildirişinin 2.7-ci maddəsində nəzərdə tutulanlara əlavə olaraq fərdi məlumatlarınıza münasibətdə Sizin aşağıdakı hüquqlarınız var:

- toplanılmış fərdi məlumatlarınızın mövcudluğu barədə məlumat almaq;
- toplanılmış fərdi məlumatlarınızın məzmunu ilə tanış olmaq;
- fərdi məlumatlarınızla tanış olmaq icazəsi olan şəxslərin, o cümlədən məlumat mübadiləsi aparılması nəzərdə tutulan informasiya sistemlərinin dairəsini bilmək;
- fərdi məlumatlarınızın toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin hüquqi əsaslandırılmasını tələb etmək, bu məlumatların toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin Sizin üçün hansı hüquqi nəticələrə səbəb olacağı barədə məlumat almaq;

- fərdi məlumatlarınızın toplanılmasına və işlənilməsinə qadağan qoyulmasını tələb etmək;
- toplanılmış fərdi məlumatlarınızın mühafizəsini tələb etmək;
- fərdi məlumatlarınızın toplanılmasına və işlənilməsinə yazılı qaydada etiraz etmək;
- toplanılmış və işlənilən fərdi məlumatlarınızın dəqiqləşdirilməsini və məhv edilməsini tələb etmək, habelə həmin məlumatların arxivə verilməsi barədə müraciət etmək;
- Qanunla nəzərdə tutulan digər hüquqlar.

Bildirişin 2.10-cu maddəsinə əsasən Sizin fərdi məlumatlarınız onun daha tez məhv edilməsini tələb etmədiyiniz təqdirdə, Operator tərəfindən 3 il müddətində saxlanılır.

Fərdi məlumatınızla bağlı yuxarıda qeyd olunan hüquqlarınızı həyata keçirmək üçün corporateprivacy.im@pg.com elektron ünvanı ilə Operatora müraciət edə və ya Bildirişin 4.0-cü maddəsində nəzərdə tutulan digər əlaqə vasitələrindən istifadə edə bilərsiniz.

*4. Fərdi məlumatlarınızın verilməsi və transsərhəd ötürülməsi*

Sizin fərdi məlumatlarınız üçüncü şəxslərə verilə və transsərhəd ötürülə bilər. Fərdi məlumatlarınızı təqdim etməklə fərdi məlumatlarınızın üçüncü şəxslərə verilməsi və transsərhəd ötürülməsinə Razılıq vermiş olursunuz. Fərdi məlumatların transsərhəd ötürülməsi zamanı bu məlumatların təhlükəsizliyi Operator tərəfindən təmin edilir.